*UOT 378.4:303.722*

# ORTA İXTİSAS MƏKTƏBLƏRİNDƏ İDARƏETMƏNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Ülkər Rəfayıl qızı Əfəndiyeva**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0006-3125-3598
**E-mail:** muradovaulkr@gmail.com

***Açar sözlər:*** *orta ixtisas təhsili, təhsilin idarəolunması, təhsil müəssisələrinin idarə edilməsi, kadr hazırlığı, tələbə mərkəzli yanaşma*
***Ключевые слова:*** *среднее профессиональное образование, управление образованием, управление образовательными учреждениями, профессиональная подготовка, ориентированный на студента подход*
***Key words:*** *vocational education, education management, management of educational institutions, professional training , student-centered approach*

Orta ixtisas təhsili təhsil sisteminin mühüm bir hissəsi olaraq tələbələrin ixtisaslaşmış bacarıqlar əldə etmələrini təmin edən bir mərhələdir. Dövlətin təhsil siyasətində həyata keçirilən islahatlar, müasir tələblər və iş bazarının ehtiyacları, orta ixtisas təhsilinin inkişafını təmin etmək üçün yeni yanaşmaların tətbiqini zəruri edir. Orta ixtisas təhsili sistemi peşə təhsili strukturunda özünəməxsus xüsusiyyətləri, sosial-mədəni tarixi və inkişaf yolu olan bir quruluşdur. Bu struktura aid olan ixtisasların hər biri üçün tədris olunacaq fənlər və onların saatları əvvəlcədən müəyyən edilmişdir [5, s.175].

Orta ixtisas təhsili, cəmiyyətin və əmək bazarının ehtiyaclarına uyğun olaraq, ümumi orta və tam orta təhsil bazasında müxtəlif sahələr üçün peşəkar mütəxəssislərin hazırlanmasını təmin edir. Bu təhsil səviyyəsi, yüksək səviyyəli və rəqabətə davamlı kadr potensialının formalaşması üçün əsaslı bir baza yaradır. Ömür boyu təhsilin və təhsilin fasiləsizliyinin təmin edilməsi ilə yanaşı, iqtisadiyyatın və cəmiyyətin tələblərinə uyğun keyfiyyətli təhsil verilməsi ön planda tutulur. Həmçinin, yeni texnologiyalar və müasir standartlara uyğun, yüksək intellektual səviyyəyə və praktiki bacarıqlara sahib, çevik düşüncə tərzi ilə informasiya axınında doğru istiqaməti tapa bilən kadrların yetişdirilməsi hədəflənir (6).

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Ali və Orta İxtisas Təhsili Şöbəsi vasitəsilə orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinə nəzarət edir və bu sahənin inkişafını dəstəkləyir. Şöbə, müvafiq qanunlar və beynəlxalq müqavilələr əsasında orta ixtisas təhsilinin keyfiyyətini artırmağa, müasir tələblərə cavab verən kadr hazırlığını həyata keçirməyə, eləcə də tədrisin təşkilini gücləndirməyə yönəlik bir sıra tədbirlər həyata keçirir. Bundan əlavə, bu şöbə təhsil müəssisələrinə metodiki dəstək verir və təhsilin keyfiyyətini mütəmadi olaraq izləyir [7]. “Təhsil Qanunu”na əsasən deyə bilərik ki, orta ixtisas təhsilli mütəxəssisləri rəqabətcil, müasir tələblərə, şəraitə uyğunlaşan, yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, həmçinin daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə malik olmalıdır [5, s. 177].

Orta ixtisas təhsili müəssisələrinin inkişafı yalnız tədrisin keyfiyyətinin artırılması ilə məhdudlaşmır. Bu, həm də infrastrukturun modernləşdirilməsi, müasir texnologiyaların tətbiqi və əmək bazarının tələblərinə uyğun tədris proqramlarının hazırlanmasını tələb edir. Müəssisələr arasında əməkdaşlıq, dövlət və özəl sektor arasında tərəfdaşlıqların qurulması, beynəlxalq təcrübənin tətbiqi orta ixtisas təhsilini daha da gücləndirə bilər.

Orta ixtisas təhsili yalnız peşəkar kadrların hazırlanmasına xidmət etmir, həm də cəmiyyətin ümumi inkişafına böyük töhfələr verir. Yüksək ixtisaslı mütəxəssislərin hazırlanması yalnız iqtisadiyyatı inkişaf etdirməklə qalmır, həm də sosial sahələrdə müsbət dəyişikliklərə səbəb olur. Orta ixtisas təhsilinin davamlı olaraq təkmilləşdirilməsi, ölkənin iqtisadiyyatının rəqabət qabiliyyətini artırır və cəmiyyətin hər sahəsində səmərəliliyi yüksəldir. Bu təhsil sahəsi həm cəmiyyətin, həm də iqtisadiyyatın tələblərinə uyğun mütəxəssislər yetişdirməkdə mühüm rol oynayır və gələcəkdə daha güclü bir inkişafın təməlini qoyur [7].

İdarəetmə anlayışına gəldikdə isə, resursların optimal şəkildə istifadə edilməsi, məqsədlərə çatmaq üçün səmərəli planlaşdırma və təşkilatın fəaliyyətini istiqamətləndirmə prosesidir. Orta ixtisas təhsil müəssisələrində idarəetmə, tədris prosesinin yüksək keyfiyyətlə həyata keçirilməsini təmin etməklə yanaşı, tələbələrin peşəkar inkişafına da töhfə verir. Təhsil müəssisələrinin məqsədləri arasında ixtisaslı mütəxəssislərin hazırlanması, elmi-tədqiqat işlərinin dəstəklənməsi və innovativ texnologiyaların tətbiqi yer alır. Bu məqsədlərə çatmaq üçün idarəetmə prosesinin müasir standartlara uyğun qurulması vacibdir. Bu sahə, təkcə tədris prosesini deyil, həm də təhsil müəssisəsinin maliyyə, kadr, idarəetmə və strateji planlaşdırma kimi müxtəlif yönlərini əhatə edir. Orta ixtisas təhsili, adətən peşə hazırlığına, ixtisaslaşmağa və müəyyən bir sahədə bilik və bacarıqların inkişafına yönəlir.

Təhsil sisteminin demokratik şəkildə idarə edilməsində müasir dövrün tələbləri ön planda tutulmalı, ənənəvi və avtoritar üsullardan imtina edərək, yeni texnologiyalar vasitəsilə təhsilin inkişafını sürətləndirən yollar araşdırılmalıdır. Mövcud şərtlər və tələbləri nəzərə alaraq, təhsil idarəetməsində daha səmərəli üsullar tətbiq edilməlidir [3].

Orta ixtisas təhsilinin spesifik tələbləri və məqsədləri nəzərə alınaraq, idarəetmənin müəyyən xüsusiyyətləri mövcuddur. Orta ixtisas məktəblərində idarəetmənin əsas xüsusiyyətlərindən biri tədris proqramlarının xüsusi ixtisas sahələrinə uyğunlaşdırılmasıdır. Bu məktəblər, əsasən, tələbələri müəyyən bir peşə sahəsinə hazırlayır və bu sahələrə uyğun bilik və bacarıqları inkişaf etdirir. Müəllimlər, tədris planları yalnız nəzəri biliklərə əsaslanmamalı, həm də sahəyə aid praktiki bacarıqları əhatə etməlidir. İdarəetmə bu proqramların müasir dövrün tələblərinə cavab verməsini təmin etməli və təhsil prosesini daimi yeniləməklə tələbələrin ixtisas sahələrinə uyğun ixtisaslaşmalarını dəstəkləməlidir.

Orta ixtisas məktəblərində idarəetmənin başqa bir xüsusiyyəti, hazırlanan kadrlarının peşəkarlığının artırılmasıdır. Tədris prosesinin keyfiyyəti müəllimlərin peşəkarlığından asılıdır. İdarəetmə bu baxımdan müəllimlərin mütəmadi təlimlərə cəlb olunmasını, onların ixtisaslarının artırılmasını və müasir pedaqoji metodlarla tanış olmalarını təmin etməlidir. Müəllimlərin həm nəzəri, həm də praktiki bilikləri artırılmalı və onların sahələrinə uyğun olaraq fərdi inkişafları üçün şərait yaradılmalıdır. Təhsil müəssisələrində müəllimlərə metodik dəstək verilməli, onların tədrisə innovativ yanaşmalar gətirmələri təşviq edilməlidir.

Orta ixtisas məktəblərində idarəetmənin mühüm xüsusiyyətlərindən biri də tələbə mərkəzli yanaşmadır. Tələbələrin ehtiyaclarına və maraqlarına uyğun təhsil mühiti yaradılmalıdır. Bu,

yalnız akademik tədris prosesini deyil, həm də tələbələrin sosial və şəxsi inkişafını əhatə edir. Tələbələrin liderlik, kommunikasiya və problem həll etmə kimi bacarıqları üzərində iş aparılmalıdır. İdarəetmə, tələbələrin yalnız peşəkar biliklər əldə etməsini deyil, həm də həyat bacarıqlarını inkişaf etdirmələrini dəstəkləməlidir. Bu məqsədlə məktəblər sosial fəaliyyətlər, seminarlar, kurslar və təlimlər təşkil etməlidir.

Orta ixtisas məktəblərinin idarəetmə strukturu, əmək bazarının tələblərinə uyğun mütəxəssislər yetişdirmək məqsədini güdür. Bunun üçün təhsil müəssisələri, yerli və beynəlxalq iş bazarının ehtiyaclarını nəzərə alaraq tədris proqramlarını tənzimləməli və uyğun sahələrdə mütəxəssislər yetişdirməlidir. İdarəetmə, iş dünyası ilə sıx əlaqələr qurmalı, müvafiq sahələr üzrə təcrübə proqramları təşkil etməli və tələbələrin işə yerləşməsini asanlaşdıracaq dəstək mexanizmlərini tətbiq etməlidir.

Orta ixtisas məktəblərində idarəetmənin başqa bir əhəmiyyətli aspekti təhsilin keyfiyyətinə nəzarətdir. Tədris prosesinin davamlı olaraq izlənməsi və qiymətləndirilməsi tələbələrin bilik və bacarıqlarının müntəzəm olaraq yoxlanılmasını tələb edir. İdarəetmə, mütəmadi olaraq tədris proqramlarını və müəllim fəaliyyətlərini qiymətləndirməli, tələbələrin inkişafını izləməli və tədrisin keyfiyyətinin artırılması üçün tədbirlər görməlidir. Təhsil müəssisələrinin daxili monitorinq sistemləri vasitəsilə təhsilin səmərəliliyini qiymətləndirilməli və güclü tərəflər daha da inkişaf etdirilməlidir.

**Problemin aktuallığı.** Orta ixtisas təhsilinin inkişafı, cəmiyyətin iqtisadi və sosial tələblərinə cavab vermək məqsədilə günümüzdə daha da önəmli olub. Azərbaycanın təhsil islahatları əmək bazarının ehtiyaclarına uyğun peşəkar kadrlar yetişdirməyə yönəlib. Bu kontekstdə təhsil müəssisələrinin idarə edilməsi, müasir tədris proqramları və müəllimlərin peşəkarlığının artırılması vacibdir. Müasir texnologiyaların tətbiqi, tələbə mərkəzli yanaşmalar və sosial bacarıqların inkişafı da aktual məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Məqalədə təqdim olunan yanaşmalar, orta ixtisas təhsilinin inkişafı ilə bağlı mövcud tədqiqatlarda olan boşluqları doldurur və yeni perspektivlər açır. Belə ki, idarəetmənin müasir standartlara uyğun tərtib edilməsi və tətbiqi məsələsi hələ də tam mənimsənilməmişdir. Bu, orta ixtisas təhsilinin idarə edilməsinin keyfiyyətini artırmaqla yanaşı, tədris proqramlarının uyğunlaşması və müəllimlərin peşəkarlığının davamlı inkişafı sahəsində elmi yeniliklər təqdim edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Orta ixtisas təhsilinin idarə edilməsi və tədris prosesinin inkişafı, təhsil keyfiyyətini artırmaqla yanaşı, cəmiyyətin iqtisadi inkişafına da töhfə verir. Təklif olunan idarəetmə modeli və tədris yanaşmaları, əmək bazarının ehtiyaclarına uyğun mütəxəssislər yetişdirmək, tədrisin keyfiyyətini yüksəltmək, müəllimlərin peşəkar inkişafını dəstəkləmək və tələbələrin həyat bacarıqlarını artırmaq üçün vacibdir.

## Ədəbiyyat

1. Əliyev D., Abaslı K., Məmmədov R., Məhərrəmov Q. Direktorun əl kitabı. Bakı: Mücrü, 2021, 224 s.

2. Məmmədzadə R., Abdullayev A. və b. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008.

3. Xudiyeva F. T. Təhsil müəssisələrinin demokratik idarə edilməsinin aktual problemləri. Proceedings of the 6th International Scientific and Practical Conference «Scientific Goals and

Purposes in XXI Century»: № 193. USA, 2024.
4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
5. Təhsil tədqiqatları: nəzəri və praktik yanaşmalar: Monoqrafiya. Bakı: Mütərcim, 2019, 174-193.
6. https://edu.gov.az/az/secondary-special-education
7. https://edu.gov.az/az/esas-senedler/1010
8. https://vn.taxes.gov.az/1/legal/nizamname/orta.pdf
9. https://e-qanun.az/framework/19532

**У.Р. Эфендиева**

**Особенности управления в средних специальных школах**
**Резюме**

Среднее профессиональное образование является важным этапом подготовки специалистов, соответствующих потребностям общества и рынка труда. Эта сфера образования нацелена на формирование высокоинтеллектуальных кадров с практическими навыками, обладающих гибким мышлением и способных управлять потоком информации. В области управления необходимо эффективно использовать ресурсы, повышать качество образования и улучшать профессионализм преподавательских кадров. Учебные программы должны обновляться в соответствии с требованиями современности, а студентам должны быть переданы не только профессиональные навыки, но и жизненные умения. Ориентированный на студента подход и постоянный контроль качества образования способствуют развитию средних профессиональных учебных заведений. Подготовка специалистов, соответствующих требованиям рынка труда, требует адаптации учебных программ к местным и международным потребностям, а также тесного сотрудничества с рынком труда.

**U.R. Efendiyeva**

**Specific characteristics of administration in secondary specialized schools**
**Summary**

Vocational education is a crucial stage that trains professionals tailored to the needs of society and the labor market. This field of education aims to develop specialists with high intellectual capacity and practical skills, capable of managing information flow with a flexible mindset. In terms of management, efficient resource utilization, improving the quality of teaching, and enhancing the professionalism of teaching staff are essential. Educational programs must be updated to meet contemporary demands, and students should be equipped with both professional skills and life skills. A student-centered approach and continuous monitoring of education quality are key to the development of vocational schools. Producing specialists who meet labor market demands requires aligning educational programs with both local and international needs and fostering close cooperation with the labor market.

**Redaksiyaya daxil olub:** 20.11.2024